**UOT (39)**

# QONAQPƏRVƏRLİYİN ETNOQRAFİK ASPEKTLƏRİ

***Fatma Məhərrəm qızı Qəniyeva***
***AMEA Milli Azərbaycan Tarixi Muzeyi***
***fatime.qeniyeva@gmail.com***

**Açar sözlər:** *qonaqpərvərlik, qonaq, cəmiyyət, ünsiyyət, mərasim*

*Tarixi qədim olan qonaqpərvərliyin hər bir xalqın mənavi mədəniyyətində özünəməxsus yeri vardır. İnsanlar arasındakı münasibətlər də adətlərə və vərdişlərə uyğun qurulurdu. Hər bir xalqın qonaqpərvərlik adəti özünəməxsus xüsusiyyətləri ilə fərqləndiyi kimi, icra xüsusiyyətlərinə görə də seçilir. Qonaqpərvərlik bir-birindən uzaqda yaşayan millətləri bir-birinə doğmalaşdırır, bu da tərəqqiyə, mədəni inkişafa xidmət edir. Gündən-günə möhkəmlənən qarşılıqlı əlaqələr, yaxınlaşma, zənginləşmə obyektiv inkişaf prosesidir.*

# ETHNOGRAPHICAL FOUNDATIONS OF HOSPITALITY

***Fatma Ganiyeva***

**Key words:** *hospitality, guest, society, communication, ceremony*

*The hospitality that has the ancient history has its own place in the spiritual culture of every nation. The relationships between people were also created (built) by their traditions and habits. The tradition of hospitality of every nation is distinguished by its peculiarities and as well as it is differed with its executive features. Hospitality connects nations that living far away from each other and this promotes progress and serves cultural development. The mutual relationships that strengthening day by day, convergence, the enrichment are an objective development process.*

# ЭТНОГРАФИЧЕСКИЕ АСПЕКТЫ ГОСТЕПРИИМСТВА

***Фатьма Ганиева***

**Ключевые слова:** *гостеприимства, гость, общества, общения, обряд*

*Гостеприимство, имеющее древнюю историю, занимает самобытное место в культуре каждого народа. Человеческие отношения строились в соответствии с духовной культурой каждого народа. Каждый народ отличается особенностями обычаями гостеприимства, так и своеобразием их исполнения. Гостеприимство роднит далекие друг от друга народы, что способствует прогрессу и культурному развитию. Ежедневное укрепление связей, сближение и взаимообогащение – это объективный процесс.*

Cəmiyyətdə ən mühüm ünsiyyət saxlamaq vasitəsi olan qonaqpərvərlik adəti müxtəlif xalqların, eləcə də eyni xalqın və ya müxtəlif etnik qrupların üzvləri, hətta bir sıra sosial təbəqələr arasında geniş yayılmışdır. Qonaqpərvərlik insan mədəniyyətinin təcəssümüdür. Hal-hazırda qonaqpərvərlik ilk növbədə ənənəvi dərəcə kimi qəbul edilir. Qədimdən bu dövrə qədər Azərbaycan ərazisində yaşayan xalqların qoyduğu izlərə baxaraq onu söyləmək olar ki, bu xalqın əsas inancı insana varlıq kimi dəyər verib ona xidmət göstərməkdir. Bu fəlsəfənin əsasında isə insana hörmət qaydaları əks olunur.

Qonaqpərvərlik intizamı özündə birləşdirən anlayış olaraq siyasət fəlsəfəsindən tutmuş iqtisadi nəzəriyyəyə qədər geniş araşdırma mövzusudur. Bu baxımdan qonaqpərvərlik anlayışını iqtisadi tərəfdən əlaqələndirərək tarixə nəzər saldıqda məhz bu anlayışın zaman-zaman ticari mənada da işləndiyi ayrı bir sualın cavabında özünü göstərir.

Əslində qloballaşma çox qədim dövrlərdən nəqliyyatın və rabitənin inkişafı nəticəsində bir-birindən təcrid edilmiş xalqların ünsiyyətə girməsindən başlamışdı. Atların və dəvələrin əhilləşdirilməsi və yelkənli qayıqların inkişafı bir-birindən təcrid edilmiş xalqları bir-biri ilə müxtəlif xarakterli münasibətlərə girməsinə gətirib çıxarmışdır. Bu əlaqələr həmin xalqların heç də həmişə iradəsinə və mənfəətlərinə uyğun olmamışdır. Min illərlə müxtəlif ideyalar, incəsənət növləri və mədəniyyətlər müxtəlif xalqlar arasında dünyanın bir yerindən o birinə yayılmışdır.

İndi isə məşhur fransız sosioloq və antropoloqu Marsel Mossun qonaqpərvərliyə olan münasibətinə diqqət yetirək. “Vergi haqqında əsər”, “Arxaik dövrdə mübadilənin forma və əsasları” (1925) əsərlərində ibtidai xalqlarda, hind-avropa qrupundan savayı sosial münasibətlərin mülki münasibətlər əsasında qurulduğunu, yəni hədiyyələrin mübadiləsi vasitəsilə meydana gəldiyini söyləyir [7].

Göründüyü kimi köklü bir adət olan qonaqpərvərlik, həmçinin bir dövlət siyasətini meydana gətirmişdir. Bu da qonaqpərvərliyin və dini inanclarla bağlılığın türklərdəki önəmini bir daha sübuta yetirir. Qonaqpərvərlik, məhəlli bir adət olmaqdan çıxmış ailənin bütün insanlarının mənimsədiyi və yerinə yetirdiyi bir davranış halına gəlmişdir.

*Qafqaz ərazisində yaşamış tayfalar etnik mənşəyində, dini baxışlarında və tarixlərində fərqlərin olmasına baxmayaraq, qonaqların qəbuluyla bağlı adətlərin və qanunların ümumi sistemini-qonaqpərvərlik mədəniyyətini formalaşdırmışlar.*

Qafqazda mədəniyyət yayan hesab olunan E.Reklü – (XIX əsr fransız sosioloqu və coğrafiyaşünası) xalqımızın zəngin qonaqpərvərlik adətləri, dünya xalqlarına örnək ola biləcək oyun və əyləncələri, öz kamilliyi ilə seçilən sənət yaradıcılığı, xalça kolleksiyaları, nəsillərdən-nəsillərə ötürülən və mənəvi təfəkkür yaradıcılığı olan Novruz adətləri, geyim mədəniyyəti, folklor örnəkləri və s. bu gün dünya xalqlarını da heyran etməkdədir.

Qonaq qarşılayarkən salamlaşma əsas mərhələdir. Bütün dünyada yaşından (böyük, kiçik) asılı olmayaraq salam vermək etik normaların əsasında dayanır. Məsələn xalqımız salamdan sonra ilk olaraq hal-əhvalla bağlı sual verirsə, amerikalılar isə ilk olaraq işlə bağlı, qafqazın digər bir nümayəndəsi olan adıqlar isə sağlamlıq və yeni xəbərlər haqqında qarşılıqlı maraq doğuran sual-cavab yaradır [5, 8]. Sağollaşma mərasimi də həmçinin əgər qonaq evi axşam vaxtı tərk edirsə, o zaman ”gecəniz xeyrə qalsın” ifadəsini işlədir. Sağollaşmaq özü də həm də tərbiyəvi borcdur. Dilimizdə də belə bir ifadə işlədilir ki “sağollaşmadan getdi”.

Azərbaycan xalqının toy adət-ənənələrində özünü tam təfsilatı ilə göstərən qonaqpərvərlik mühüm əhəmiyyət kəsb edir. Oğlan toyunda qız evindən gəlmiş qonaqlar iştirak edərdilər. Onlara xüsusi qulluq olunardı. Əgər toy pulludursa, qız evi də həmçinin toya gəlmiş başqaları kimi pul salardı.

Müəyyən vaxtdan sonra isə oğlan evi qızın valideynlərini qonaq edərdi. Bu mərasim eyni ilə qızın valideynləri tərəfindən də təkrar olunardı. Yalnız bundan sonra qohumlar təzə ailə quranları qonaq çağırardılar. Bu da təbii ki, hədiyyəsiz keçməzdi [3,60].

Xalq arasında bir sıra inanclar mövcuddur. Bəzən də bu inanclar qonağın gəlişinə bir işarədir. Bu inanclardan bir neçəsini qeyd etmək olar. Məsələn, “kim harasa diqqətlə baxırsa, qonaq gələcək”, körpə uşaq ayaqlarının

arasından arxaya baxarsa, qonaq gələcək”, əgər bir insanın əlindən bıçaq düşərsə kişi qonağın, qaşıq düşərsə qadın qonağın gəlişindən xəbər verir [1].

Qonaqla bağlı xalqımızın dilində belə bir ifadə də formalaşmışdır. Yuxuda xəncəri qınına qoymaq - istədiyin adam sizə qonaq gələcək. Məsələn, dünyasını dəyişən adam üçün “o öz evinə getdi biz burda qonağıq” kimi ifadələr ədəbiyyata daxil olmuşdur. Hətta qəbirstanlığa hansısa ölünü ziyarət etmək ona qonaq getmək anlamını verir. Digər bir yerdə isə eyni mənanı daşıyan sözlərdən biri də hər hansı bir yaşlı və ya xəstə bir insan üçün “dəyməyin, toxunmayın qonaqdır” ifadələri işlədilir. «Ölmüş» insan «qərib»dir, yəni «burda» (bu fani dünyada qonaqdır və deməli «başqa» aləmin (əbədiyyətin, «göy»lərin) sakinidir.

Son vaxtlar qonaqlıq mərasimlərimizi daha dəbdəbəli edənlər də az deyil, yəni bu adət evlərdə deyil, başqa əyləncə mərkəzlərində keçirilsə də bu tədbirlərdə mahiyyət eynidir. Hal-hazırda bu ənənə şəklini dəyişmiş formadadır.

Beləliklə, qonaqpərvərlik institutu əsaslı surətdə zamanın təsiri altında olmasına baxmayaraq və sosial münasibətlərin dəyişdiyi bir dövrdə bu bir borc olaraq yaşanmaqdadır. Bunu söylərkən digər bir tərəfi də qeyd etmək lazımdır ki, keçmişdə qonaq qarşılama adəti ilə tanış olarkən elə bil simvollarla rastlaşırıq ki hal-hazırda onlar demək olar öz əhəmiyyətini itirmişdir. Xalqımızın adət-ənənəsində samovar çox vacib qonaqpərvərlik simvolu olduğu kimi həm də xarici qonaqlara verilən ən dəyərli hədiyyə idi. Müasir dövrdə bütün dünyada qloballaşma hökm sürərkən qonaqpərvərliyin əsas atributu hər hansı xalqı və ölkəni təmsil edən suvenirlərdir.

Artıq XIX əsrin II yarısından qonaqpərvərlik sözü bir çox xalqların dilində işlənməyə başladı. Uzun müddət qonaqpərvərlik fərdlərin bir-biri ilə əlaqə saxlamaq vasitəsi kimi çıxış edirdi. Məhz bu əlaqələr azaldıqca insanlar arasında münasibətlər özgələşir. Transformasiya dərinləşdikcə adət-ənənələr get-gedə tamamilə unudulur. Milli şüurun əsasını təşkil edən ənənələr unudulduqda qan-nəsil birliyinin də mahiyyəti itir.

Qloballaşan dünyada xalqların ənənəvi mədəniyyətlərinin elementləri surətlə yox olmaqdadır. Bu dəyişikliklər təkcə, maddi mədəniyyət nümunələri ilə məhdudlaşmır. Xalqların mənəvi mədəniyyəti, dünyagörüşü, mənlik hissi də transformasiyaya məruz qalır. Belə olan halda qonaqpərvərlik kimi mənəvi dəyərlərin öyrənilməsi də xüsusi əhəmiyyət kəsb edir. XX əsrin sonlarında milli-mənəvi transformasiyalar nəticəsində aktuallıq kəsb edən mövzulardan biri də qonaqpərvərlik ilə bağlıdır.

Müasir, olduqca aktual araşdırılması vacib olan tədqiqat işinin məqsədi mənəvi mirasın yaşadılmasıdır. Məhz qonaqpərvərlik mədəniyyətlərarası dialoqun intensivləşməsi fonunda xalqları bir-birinə yaxınlaşdıran və bu ənənənin əhəmiyyətini artıran bir fenomendir.

## ƏDƏBİYYAT

1. Azərbaycan xalq inancları və kiçik janrlar [Mətn] /Sevda İmanova; elmi red. H.İsmayılov; nəşrinə məsul. Ə.Ələkbərli; AMEA Folklor İnstitutu. Bakı 2008. 228 s.

2. Azərbaycan etnoqrafiyası. 3 clddə. III cild.. Bakı. Şərq-Qərb, 2007, 568 səh.

3. Bakı folklor örnəkləri, 2-ci kitab, Bakı, Elm və təhsil, 2015, 320 səh.

4. Байбурин А, Топорков А. У истоков этикета. Этнографические очерки 170 с.

5. Бгажноков. Б. Х. Адыгский этикет. Нальчик. 1978. 160 с. С.8

6. Грамматика гостеприимства / Отв. ред. М.Н. Губогло. – М.: ИЭА РАН, 2015. – 388 с.

7. Семенов Ю. И. Экономическая этнология. Москва. 1993

8. Этноэтикет народов Северного Кавказа. Научно-учебное пособие / Под редакцией академика В. А. Тишкова – Москва – Пятигорск: ИЭА РАН, 2014. – 114 с